# YAP-ın Azərbaycanın siyasi həyatında özünəməxsus yeri var



**1992-ci ilin ağır və gərgin günlərində Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər.**

Bu məqsədlə onlar xalqın müdrik lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında sıx birləşdilər. Beləliklə, 1992-ci il noyabrın 21-də Azərbaycanın siyasi səhnəsində yeni siyasi təşkilat - Yeni Azərbaycan Partiyası təsis edildi.

YAP-ın yaranması və siyasi hakimiyyətə gəlməsi nəticəsində həmin dövrdə Azərbaycanda dağıdıcı proseslərin qarşısı alındı. Əgər həmin vaxt Azərbaycanda bu qərar qəbul edilməsəydi, Ulu Öndər yenidən hakimiyyətə gəlməsəydi, ölkəmiz qısa zamanda çox ağır duruma düşə bilərdi. Çünki daxili qarşıdurmalar və etnik separatçılıq meyilləri ölkəni uçuruma aparırdı. Belə bir vəziyyətin qarşısını isə yalnız Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti ala bilərdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi nəticəsində YAP qısa zamanda inkişaf etdi, özünün dediyi kimi, dünənin, bu günün və gələcəyin partiyası adını qazanaraq qısa müddətdə bölgənin ən güclü partiyalarından birinə çevrildi.

Sonrakı illərdə isə YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Nəticədə partiyanın nüfuzu, üzvlərinin sayı daha da artdı.

Bu gün YAP-ın üzvləri Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq, onun ideyalarının reallaşması üçün bütün sahələrdə səylə çalışırlar. Bu siyasətə sadiqlik cəmiyyətimizdə yaşanan həmrəylikdən və Ulu Öndərə olan ümumxalq sevgisindən xəbər verir. Azərbaycan durduqca bu sevgi hər zaman insanların qəlbində yaşayacaq.

YAP Azərbaycandakı digər partiyalarla sıx əməkdaşlıq edir. Partiyanın fəaliyyətində siyasi dialoqun inkişafı isə prioritet istiqamətlərdən biridir. Bütün bunlar sübut edir ki, YAP-ın dövlətimizin siyasi həyatında özünəməxsus yeri var.

**Ceyhun MƏMMƏDOV,**
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.-21 noyabr, № 253.- S.8.